# Qərbi Azərbaycandan ermənilər tərəfindən deportasiya edilmiş azərbaycanlıların hüquqları bərpa olunmalıdır

2002-ci ilin 27 iyul tarixində “Respublika” qəzetində “Qərbi azərbaycanlı soydaşlarımıza qarşı soyqırım siyasəti unudulmamalıdır” başlığı ilə bir məqalə dərc olunmuşdu. Məqalə uzun illər mərkəzi və yerli partiya və sovet orqanlarında məsul vəzifələrdə işləmiş əmək veteranı Xosrov Məhəmməd oğlu Ağayevin (1913-2007) xatirələri əsasında yazılmışdı. Xatırladım ki, o, 3, 4, 5 və 6-cı çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, Ali Sovetin Büdcə komissiyasının sədri seçilmişdir.

Sözügedən məqalənin yazılmasına iki mühüm tarixi-siyasi və dövlət əhəmiyyətli sənəd: Ulu Öndər Heydər Əliyevin imzaladığı “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 18 dekabr 1997-ci il tarixli Fərmanı və “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli Fərmanı böyük təkan vermişdi. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş soyqırım siyasətinin açılması və dünya ictimaiyyətinə çatdırılmasında həmin sənədlərin müstəsna böyük rolu olmuşdur.

⇨Ardı səh.7

Azərbaycan müəllimi.-2023.-7 iyul.-S.1; 7.

QƏRBİ AZƏRBAYCAN

# BİZ QAYIDACAĞIQ

⇦ Əvvəli səh.1

## Qərbi Azərbaycandan ermənilər tərəfindən deportasiya edilmiş azərbaycanlıların hüquqları bərpa olunmalıdır



Совет Министров Азербайджанской ССР

СОВЕТ МИНИСТРОВ СССР
ПОСТАНОВЛЕНИЕ № 4083
от 23 декабря 1947 г. Москва, Кремль.

О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Куро-Араксинскую низменность Азербайджанской ССР.

Совет Министров Союза ССР ПОСТАНОВЛЯЕТ:

1. Переселить в 1948-1950 гг. на добровольных началах в Куро-Араксинскую низменность Азербайджанской ССР 100 тыс. колхозников и другое азербайджанское население из Армянской ССР, из них: 10 тыс. человек – в 1948 году, 40 тыс. человек – в 1949 году и 50 тыс. человек – в 1950 году.

11. Разрешить Совету Министров Армянской ССР освобождаемые азербайджанским населением постройки и жилые дома в связи с переселением их в Куро-Араксинскую низменность Азербайджанской ССР использовать для расселения зарубежных армян, прибывающих в Армянскую ССР.

Председатель Совета Министров Союза ССР И. Сталин

Управляющий Делами Совета Министров СССР Я. Чадаев



СВОДНЫЙ ПЛАН

ПЕРЕСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОГО НАСЕЛЕНИЯ ИЗ АРМЯНСКОЙ ССР В АЗЕРБ.ССР В 1948 году.

| РАЙОНЫ | Азербайджанского населения всего | | Подлежит переселению в 1948 году | | В том числе: Весной | | Осенью | |
|---|---|---|---|---|---|---|---|---|
| | Хозяйств | Душ | Хозяйств | Душ | Хозяйств | Душ | Хозяйств | Душ |
| Арташатский район | 753 | 2923 | 505 | 2005 | 330 | 1282 | 175 | 723 |
| Басаргечарский " | - | 19805 | 309 | 1533 | 124 | 645 | 185 | 888 |
| Эчмиадзинский " | 180 | 745 | 180 | 745 | - | - | 180 | 745 |
| Ноемберянский " | 468 | 2233 | 245 | 1179 | 245 | 1179 | - | - |
| Октемберянский " | 259 | 1145 | 259 | 1165 | 12 | 31 | 247 | 1134 |
| Р-н им. Берия | 40 | 170 | 40 | 170 | 40 | 170 | - | - |
| Вединский район | - | 5527 | - | 500 | - | 500 | - | - |
| Зангибасарский р-н | 3097 | 12929 | 737 | 3509 | 405 | 2115 | 332 | 1394 |
| Котайкский " | 38 | 208 | 38 | 208 | 38 | 208 | - | - |
| гор. Ереван | - | - | 65 | 230 | 65 | 230 | - | - |
| ИТОГО: | | 45685 | 2378 | 11244 | 1159 | 6360 | 1119 | 4884 |



Bəlli olduğu kimi, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları əsasında 1948-ci ildə Ermənistan SSR Zəngibasar ərazisindəki azərbaycanlılar öz dədə-baba torpaqlarından kütləvi surətdə və zorakılıqla Kür-Araz ovalığına sürgün olunmuş, hüquq normalarına və mənəvi-etik qaydalara zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya metodları geniş tətbiq edilmiş, minlərlə azərbaycanlı, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Xosrov Ağayev həmin məqalədə bütün bu məsələlərlə bağlı bilavasitə şahidi oduğu hadisələr barədə söhbət açmışdı.

Ölkəmiz dövlət müstəqilliyini bərpa edəndən sonrakı dövrdə dəfələrlə bu məsələyə qayıdılmış, bir sıra qapalı sənədlər geniş ictimaiyyətə açıqlanmış, müxtəlif dövrlərdə ermənilər tərəfindən Qərbi azərbaycanlıların başına gətirilmiş fəlakətlər geniş ictimaiyyətə çatdırılmışdır. Hazırda Qərbi Azərbaycan icması Ermənistanın azərbaycanlılara qarşı dövlət səviyyəsində törətdiyi cinayətlərin araşdırılması, dünya ictimaiyyətinə çatdırılması və deportasiya nəticəsində azərbaycanlıların pozulmuş hüquqlarının bərpası istiqamətində tədbirlər görməkdədir. İcmanın fəaliyyətinə və haqlı tələblərinə dövlət başçımız tərəfindən böyük dəstək verilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının bir qrup nümayəndəsi ilə görüşdə bildirdi ki, 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır. Bu, sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti idi. Bu, eyni zamanda, böyük ədalətsizlik idi, vicdansızlıq idi. Çünki İkinci Dünya müharibəsi cəmi 3 il idi ki, başa çatmışdı. Azərbaycan xalqı böyük fədakarlıq göstərmişdir. Təkcə sovet Azərbaycanından olan insanların 300 mini həlak olmuşdur. O vaxt sovet Ermənistanında yaşamış on minlərlə azərbaycanlı da həlak olmuşdur. Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində əldə edilmiş qələbədə müstəsna rol oynamışdır. Azərbaycan nefti olmasaydı sovet dövləti heç vaxt qələbə qazana bilməzdi. Bütün bunlara baxmayaraq, xalqımıza qarşı növbəti cinayətin törədilməsi, yenə də deyirəm, böyük vicdansızlıqdır və saxta bəhanə adı altında xalqımız növbəti deportasiyaya məruz qalmışdır.

Düşünürük ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu fikirlərinin kontekstində 20 il əvvəl dərc olunmuş həmin məqalənin müəyyən əlavələrlə, həmçinin məqalənin işıq üzü görməsindən sonrakı dövrdə X.Ağayevin danışdığı xatirələr əlavə olunmaqla, təkrar dərc olunması vacibdir.

***

1947-ci ilin ortalarında Sabirabad rayon partiya komitəsinin birinci katibi seçilməyimlə əlaqədar Maştağa rayon partiya komitəsinin rəhbərliyindən azad edildim. Yeni işə başladığım rayonda ilk günlərdən həddən artıq çox problemlərlə qarşılaşırdım. Əhalinin sosial vəziyyətinin ağırlığı, müharibənin yaratdığı çətinliklər hər addımda hiss olunmaqdaydı. Bu məsələlərlə bağlı bizi tez-tez Bakıya, respublika rəhbərliyinin yanına dəvət edir, mövcud problemlərin həlli ilə bağlı müzakirələr keçirirdilər.

Belə yığıncaqlardan biri 1948-ci ilin əvvəllərində keçirilirdi. İclasda respublikanın bütün bölgələrindən olan partiya və sovet fəalları iştirak edirdilər. İclasdan sonra Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi M.C.Bağırovun köməkçisi Novikova mənə yaxınlaşıb dedi ki, yoldaş Bağırov Sizi yanına dəvət edir. Sözün açığı, o dövrün müəyyən spesifik xüsusiyyətlərini və şəraiti nəzərə alaraq öz-özümə çox həyəcanlandım. Qəbul otağına gələndə məndən başqa daha üç nəfərin - Saatlı, İmişli və Əli Bayramlının birinci katiblərinin də burada olduğunu gördüm. Novikova bizə dedi ki, yoldaş Bağırov hamınızı birlikdə qəbul edəcək. Təxminən bir saat min cür şey fikirləşə-fikirləşə qəbul otağında gözləməli olduq. Sonra bizi içəri dəvət etdilər. M.C.Bağırovla söhbətimizdə daha bir nəfər - Azərbaycan Kommunist Partiyası MK-nın kadr məsələləri üzrə katibi Soltan Qafarzadə də iştirak edirdi. Bu altı nəfərdən başqa həmin söhbətdə heç kim iştirak etməmişdi. Biz içəri daxil olub, Bağırovla salamlaşandan sonra o dedi ki, "mən bu gün sizinlə çox vacib bir məsələni müzakirə etmək istəyirəm. Lakin bir şərtə ciddi əməl etməyinizi xahiş edirəm. Bizim bugünkü söhbətimiz heç bir kənar yerdə və heç kimlə müzakirə olunmamalıdır". Sonra o, bir müddət fikrə getdi.

Bəlkə də deyəcəyi sözlərin daha yumşaq formada çatdırılması barədə düşünürdü. Bilirsinizmi,- dedi,- belə bir plan var ki, Ermənistanda yaşayan azərbaycanlıların bir hissəsini Azərbaycanın Kür-Araz ovalığında kənd təsərrüfatı işlərinin yerinə yetirilməsində işçi qüvvəsinin çatışmadığını nəzərə alaraq, oraya köçürsünlər. Əgər belə bir planın icrası haqqında göstəriş verilsə, biz gərək köçürüləcək əhalini harada və necə yerləşdirməyə hazır olaq. O hamımıza müraciətlə, - fikrinizi bildirməkdə sizə tam sərbəstlik verirəm, heç nədən çəkinmədən hansı cavabı versəniz, dinləməyə hazıram, - dedi.

Açığı, belə bir xəbər eşidəcəyimiz heç kəsin ağlına gəlməzdi. İndi birdən-birə cavab vermək, fikir söyləmək isə ondan da çətin məsələ idi. Buna baxmayaraq, biz qeyd etməyi lazım bildik ki, ölkə müharibədən təzə çıxıb, Kür-Araz ovalığındakı kəndlərin əhalisinin sosial vəziyyəti çox ağırdır. Dövlət tapşırıqlarını yerinə yetirməkdə çətinlik çəkirlər. Köçürüləcək əhalinin yerləşdirilməsi üçün ən adi şərait belə yoxdur. Əvvəlcə gərək onlara torpaq sahələri ayrılsın, ev-eşik tikilsin, yalnız bundan sonra əhalini qəbul etmək barədə danışmaq olar. Söhbətdə səslənən - köçürülən əhali buna necə razı olacaq sualına - Bağırov belə cavab verdi ki, bu iş könüllü olaraq həyata keçiriləcək. Heç kimə zor tətbiq edilməyəcək. Azərbaycanlıların min illər yaşadıqları dədə-baba torpaqlarından köçürülməsi hansı zərurətdən doğmuşdur sualını isə M.C.Bağırov belə izah etdi ki, xaricdə yaşayan ermənilər Ermənistana köçmək istəyirlər. Onların yerləşdirilməsi üçün torpaqları çatışmır. Buna görə də Ermənistandan köçürülən azərbaycanlıların yerində xaricdən gələn ermənilərin məskunlaşdırılması nəzərdə tutulur.

Biz müxtəlif yumşaq formalarda bu əməliyyatın azərbaycanlılar üçün nə qədər ağır nəticələr verəcəyini və əhalinin məcburi köçürülməsinin əleyhinə olduğumuzu bildirdik. Axırda belə bir təklif də irəli sürdük ki, qoy köçürülməsi planlaşdırılan əhalinin nümayəndələri gəlsinlər, şəraitlə yerində tanış olsunlar, harada yerləşdiriləcəklərini bilsinlər, müəyyən hazırlıq işi aparılsın, sonra da əhali köçürülsün.

Müzakirənin qızğın çağında "VÇ" telefonu zəng çaldı. M.C.Bağırov dərhal dəstəyi qaldırdı və xəttin o biri başındakı adama: "Bəli, bəli, İosif Vissorionoviç, bəli, hər şey normaldır. Çox sağ olun, çox sağ olun, İosif Vissorionoviç, - cavab sözlərini söylədi. Biz başa düşdük ki, bu sözlər bir neçə gün öncə xəstələnmiş M.C.Bağırovun səhhəti ilə maraqlanan Stalinə verilən cavab idi.

Bundan sonra biz müzakirəni bir az da davam etdirdik. M.C.Bağırov açıq deməsə də, eyhamla bildirirdi ki, bu məsələni Mikoyan qaldırır və Ümumittifaq Kommunist Partiyasının Mərkəzi Komitəsi də onun təklifini məqsədəuyğun hesab edir. Ona görə köçürülmə əməliyyatına hazır olmaq lazımdır. Biz daxilən onun bu işin əleyhinə olduğunu hiss etsək də, onun məsələyə açıq münasibətini öyrənə bilmədik.

*Müəllifin xatirələrindən.* "Dəvət olunmuş iştirakçılar iclasın gedişindən başa düşürdülər ki, respublika rəhbərliyi azərbaycanlıların Ermənistandan köçürülməsinə, daha doğrusu, deportasiya edilməsinə mənfi münasibət bəsləyir. İclasda M.C.Bağırov bir neçə dəfə köçürmə prosesinin bilavasitə təşkilatçılarından olan A.Mikoyanın fəaliyyəti haqqında kobud formada fikir söylədi, onun azərbaycanlılara qarşı alçaq niyyətləri barədə eyham vurdu. Həmin iclasdan keçən uzun illərdən sonra mənə hər dəfə elə gəlirdi ki, İ.Stalinin həmin zənginin də təşəbbüskarı məhz A.Mikoyan olmuşdu. Bu iclas barədə öz adamları vasitəsilə xəbər tutmuş A.Mikoyan bununla elə bil qoyulmuş məqsədin əhəmiyyətini bir daha vurğulamaq istəyirdi".

Təəssüf ki, o zaman M.C.Bağırov bizə artıq SSRİ Nazirlər Sovetinin Azərbaycan xalqına qarşı cinayət xarakterli 23 dekabr 1947-ci il tarixli 4083 nömrəli qərarı barədə bir söz demədi. Biz isə hələ nəyəsə ümid edir və ondan dönədönə xahiş edirdik ki, köçürmənin qarşısının alınması üçün Mərkəzi Komitəyə müraciət etsin. Əlbəttə, M.C.Bağırov haqqında danışarkən, qeyd etməliyəm ki, onun müsbət və mənfi işləri həddən artıq dərəcədə bir-birinə qarışdığından onu heç vaxt birmənalı xarakterizə etmək olmaz. Üstəlik də, onun dəstəklədiyi repressiya dalğaları o zaman bizim ailədən də yan ötməmişdir. Ancaq bu gün, əlbəttə, bunları araşdırmağa, təhlil etməyə ehtiyac da yoxdur. Çünki tarix buna öz qiymətini vermişdir. Lakin bir məsələni qeyd etməliyəm ki, o illərdə yaşayan nəsildə bütün bu neqativ halların bir sonu olacağına möhkəm inam vardı. Eyni zamanda həmin dövrdə respublikamızda quruculuq işləri də aparılırdı, fabriklər, zavodlar tikilirdi.

O gün həmin söhbətdə iştirak edənlər öz iş yerlərinə ürəklərində ağır bir daşla qayıtdılar. Biz bu işin necə böyük fəlakətlərə səbəb olacağını görür və çıxış yolunu axtarıb tapmağa çalışırdıq.

1948-ci ilin may ayının ortalarında mənə Bakıdan zəng edib dedilər ki, hazırlaşın, yaxın günlərdə köçkünlərin ilk dəstəsi gələcək, onları qəbul edin. Mən dərhal S.Qafarzadəyə zəng edib dedim ki, axı biz belə danışmamışdıq, heç bir hazırlığımız yoxdur. Gələn əhalini harada yerləşdirəcəyik? O isə dərindən nəfəs alıb, - artıq qərar vardır, bu iş yuxarıdan həyata keçirilir, gələn əhalini harada və necə istəyirsiniz, orada yerləşdirin, bunun üçün təcili hazırlıq işi aparın, - dedi.

*Müəllifin xatirələrindən.* "Sonradan məlum oldu ki, Respublikamızın rəhbərliyi tərəfindən 23 dekabr 1947-ci il tarixli 4083 nömrəli qərarın icrasının təxirə salınması barədə xahişlə SSRİ Nazirlər Sovetinə dəfələrlə müraciətlər edilmişdir. Onun sonuncu müraciətinə Stalin cavab vermişdi ki, artıq gecdir, Siyasi Büro bununla bağlı qərar qəbul etmişdir və onu yerinə yetirmək lazımdır. Burada bir vacib məqamı da qeyd etmək lazımdır. Hadisələrin gedişindən də hiss olunurdu ki, bu qərarda göstərilən azərbaycanlıların "könüllü köçürülməsinin" başqa məqsədləri də vardır. Belə ki, azərbaycanlı əhalinin yüksək artım tempini görən Ermənistan rəhbərliyi bunun gələcəkdə hansı problemlərə gətirib çıxaracağından narahat olaraq, məhz bu səbəbdən azərbaycanlıların köçürülməsi məsələsini SSRİ Nazirlər Soveti qarşısında qaldırmışdı. Təbii ki, bu məsələnin əsas təşkilatçısı və dəstəkçisi də A.Mikoyan olmuşdu" *(şəkil 1)*.

Biz təcili olaraq rayon ərazisini gəzməyə və əhalini yerləşdirmək üçün boş sahələri müəyyənləşdirməyə başladıq. Buna baxmayaraq, mən hələ də köçürmə əməliyyatına inanmır və hansısa xüsusi qərarın veriləcəyini gözləyirdim. Təəssüf ki, Qafarzadə də mənə o zaman hansı qərardan söhbət getdiyini söyləmədi.

İyun ayının əvvəllərində mənə Bakıdan yenidən zəng edib, xəbər verdilər ki, köçkünlərin ilk eşelonu artıq Ermənistandan çıxıb, bir həftədən sonra Sabirabadda olacaq. O dəqiqə Nazirlər Sovetinin o vaxtkı sədri Teymur Quliyevə zəng edib, ona öz etirazımı bildirdim və dedim ki, heç bir şəraitimiz, imkanlarımız yoxdur. T.Quliyev isə,- bu, hökumət qərarıdır və yerinə yetirilməlidir, - dedi. Bu danışıqdan dərhal sonra rayon fəallarının yığıncağını çağırdıq. Köçkünləri Həşimxanlı, Suqovuşan, Qalaqayın, Bulduq sovetliklərində, Pakrovka, Qaralar və digər kəndlərdə yerləşdirməyi qərarlaşdırdıq. Həmin sovetlik və kəndlərin rəhbərlərinə konkret tapşırıqlar verildi. Köçkünlərin ilk dəstəsini qarşılamaq üçün həmin kəndlərin ağsaqqalarından ibarət nümayəndə qrupu da yaratdıq.Köçkünlərin gəldiyi ilk yük vaqonları (bəli, yük vaqonları) Sabirabad şəhərindəki pambıq zavodunun dəmir yolu ayrıcında dayanmışdı. Köçkünlərin müəyyən əmlakı, o cümlədən mal-qara da vaqonlara yüklənmişdi. Yəqin bu səbəbdəndir ki, həmin eşelon Ermənistandan Azərbaycana 1 həftəyə gəlib çatmışdı. Yollarda mal-qaranı suvarmaq, təmizləmək və s. işləri görməyə xeyli vaxt gedirdi *(şəkil 2)*.

Köçkünlərlə söhbətdən müəyyən etdik ki, birinci növbədə Zəngibasar ərazisindən, Türkiyə ilə sərhəddə olan kəndlərdə yaşayan azərbaycanlıları köçürürlər. Həmin gün qəbul etdiyimiz azərbaycanlılar isə həmin bölgənin Xeyirbəyli kəndinin əhalisi idi.

*Müəllifin xatirələrindən.* "Zəngibasar - İrəvan xanlığının rayon-mahallarından biri, 1920-ci ildən Ermənistan SSR-in Zəngibasar rayonu. Sonrakı mərhələdə rayonun adını dəyişərək Masis qoymuşlar.1930-cu illərin repressiyaları zamanı Zəngibasar mahalının Arazqırağı kəndlərinin əhalisinin böyük bir hissəsi baş götürüb Türkiyəyə köçüb. XX əsrin qırxıncı illərin əvvəllərində Zəngibasar rayonunun milli tərkibi aşağıdakı kimi olmuşdur: təxminən 64% azərbaycanlılar, 34% ermənilər və 2% rus və kürdlərdən ibarət idi".

Sabirabadın adlarını çəkdiyim sovetlik və kəndlərinin əhalisi, ağsaqqallar köçkünləri öz doğmaları kimi çox mehribanlıqla qarşılayırdılar. Sonradan da yerli əhali onlara hər cür yardım göstərir, duz-çörəklərini onlarla yarı bölürdü. Lakin ilk günlər yaranmış çox böyük gərginliyi heç vaxt unutmaq olmaz. Köçkünlərin nümayəndələri müəyyən məlumatlar əldə edəndən və şəraitlə tanış olandan sonra artıq vaqondan düşmək istəmir və geriyə qaytarılmaqlarını tələb edirdilər. Onlar deyirdilər ki, bizi hər cür şəraiti olan yerə köçürməyə söz vermişdilər, demişdilər ki, sizi orada hazır evlərə yerləşdirəcək, torpaq sahələri verəcəklər. İndi görürük ki, bizi aldatmışlar *(şəkil 3)*.

Maraqlı bir məqam heç vaxt yaddaşımdan silinməyib. Gələnlərin arasında bir nəfər vəfat etmişdi. Biz onu dəfn etmək üçün zəruri tədbirlər görmək istədik. Lakin köçkünlər buna heç cür razılıq vermək istəmirdilər. Hətta ağsaqqallar, din xadimləri işə qarışsalar da nəticəsi olmadı. Yalnız mənim xahişimlə o vaxtkı Dövlət Təhlükəsizliyi Nazirliyinin Sabirabad rayon şöbəsinin rəisi Rzaqulu Quliyevin məsələyə qarışması nəticəsində onların razılığını əldə etmək mümkün oldu. R.Quliyev gələnlərin ağsaqqallarına izah etdi ki, sizin geriyə qayıtmağınıza bizim sözümüz yoxdur. Lakin adətənəni də pozmaq olmaz. Gəlin vəfat edəni ata-baba qaydası ilə torpağa tapşıraq. Əgər sizin geriyə qayıtmaq məsələniz həll olunsa, onda ölünü də çıxarıb aparmaqda sizə hər cür köməklik göstərəcəyik. R.Quliyevin bu sözlərindən sonra köçkünlərin ağsaqqaları mərhumu dəfn etməyə razılıq verdilər.

Yeri gəlmişkən, vətənini, xalqını dərindən sevən bir insan kimi R.Quliyevin gözəl insanlıq xüsusiyyətlərini yaddan çıxarmaq mümkün deyildir. Onun tez-tez köçkünlərlə görüşdüyünü, problemlərini öyrəndiyini və həllində hər cür köməklik göstərməyə çalışdığını həmişə xatırlayıram.

Sonradan bizə məlum olmuşdu ki, köçürülənlər bu işə heç də könüllü olaraq razılıq verməmişlər. Onların çoxunu gecəyarısı yuxudan oyadıb, zorla vaqonlara doldurmuş və Azərbaycana yola salmışdılar. Köçkünlərin ev-eşikləri, əksər hallarda əmlakları, mal-qarası Ermənistanda saxlanmış və bütün bu var-dövlət ermənilərə verilmişdi. Lakin o dövrdə azərbaycanlı əhalinin Ermənistandan tamamilə köçürülməsinə çox ciddi-cəhdlə can atılmasına baxmayaraq, onların bir hissəsi yenə də öz yerlərində qalmaqda davam edirdi. Bəlkə də, əhalinin qalan hissəsinin köçürülməməsinin başqa səbəbləri də var idi. Qeyd etmək lazımdır ki, Ermənistanda daha çox kənd təsərrüfatında çalışan bu əhalinin oradan köçürülməsi təbii ki, qısa müddətdə burada özünün ağır nəticələrini vermiş, kənd təsərrüfatı məhsulları qıtlığı yaratmışdı. Buna baxmayaraq, ermənilərin mərkəzi orqanlara şikayətlərinin ardı-arası kəsilmirdi. Guya xaricdən gələnləri orada yerləşdirməyə torpaq çatışmırdı.

1953-cü ildə müəyyən araşdırmalar aparmaq və yerində məlumat almaq məqsədilə azərbaycanlıların Ermənistandan köçürüldükləri ərazilərdə olarkən bir daha əmin oldum ki, azərbaycanlıların bu ərazilərdən köçürülməsinə razılıq verilməsi necə bağışlanılmaz bir səhv addım olmuşdur. Köçürülmüş azərbaycanlıların evlərinin (özü də o dövr üçün çox gözəl və abad evlərin) çoxu hələ də boş-boşuna qalmaqda idi. Zəngibasarın çox hissəsini gəzdik. İrəvan ətrafındakı evlərin bir hissəsində məskunlaşdırılan ermənilər də xaricdən gələnlər deyildi. Hər yerdə bir süstlük, bir sahibsizlik hökm sürürdü. Sovet İKP-nın o vaxtkı rəhbərliyinin cinayət əməllərinin qurbanı olmuş Ermənistanda yaşayan azərbaycanlıların min illik dədə-baba yurdları bizi belə soyuq və laqeyd qarşılayır, sanki bu ağılsız siyasətin davam etdirilməsinə imkan verilməməsini xahiş edirdi. Biz isə o zaman aparılan azərbaycanlıların soyqırımı siyasətinə qarşı hər hansı bir iş görmək iqtidarında olmadığımızı hiss edir və mənən əzab çəkirdik.

O müdhiş illərin üstündən xeyli vaxt ötmüşdür. Bu illərdə işimlə əlaqədar o zaman zorla Ermənistandan Azərbaycana deportasiya edilənlərin çoxlu nümayəndələri ilə tanış olmuşam. Əksəriyyəti işgüzar, bacarıqlı, savadlı kadrlar kimi qısa müddətdə Respublikamızın ictimai-siyasi və iqtisadi həyatında qaynayıb qarışdılar, müxtəlif sahələrdə məsul vəzifələrə irəli çəkildilər.

*Müəllifin xatirələrindən.* "Ermənistandan, o cümlədən qədim Azərbaycan torpağı Zəngibasardan deportasiya olunanlar arasında orta məktəb müəllimləri də var idi və sonralar onların çoxu öz pedaqoji fəaliyyətlərini Azərbaycanda davam etdirdilər. Açığını desəm, onlar haqqında məndə qısa müddət ərzində pozitiv təəssürat yaranmışdı, çoxları ilə mehriban münasibətlərimiz formalaşmış, bəziləri ilə səmərəli əməkdaşlıq əlaqələrimiz yaranmışdı.

Onlar keçmiş günləri xatırlayaraq, Ermənistanın zərərli təhsil strategiyasından, ermənilərlə azərbaycanlılar arasında formalaşmış ideoloji və siyasi sərhədlərdən danışırdılar. Qeyd edirdilər ki, bütün bunlar azərbaycanlıları Ermənistanı tərk etməyə məcbur etmək məqsədilə onlara qarşı əvvəlcədən düşünülmüş, hazırlanmış və tətbiq edilmiş qanunsuz əməllər idi".

Lakin bu adamlarla təmasda olarkən mən həmişə onların ürəklərində o məşəqqətli illərin ağrısının qaldığını hiss edirdim. Bununla birlikdə, biz hamımız inanırdıq ki, nə vaxtsa bu cinayət faktlarına hüquqi-siyasi qiymət veriləcək...

### Yekun söz əvəzi

XIX əsrin əvvəllərindən başlayaraq rus imperializminin və erməni şovinistlərinin Azərbaycan xalqının başına gətirdikləri bəşəri cinayətlərə aid yeni-yeni faktlar və sənədlər aşkar edilməkdədir. Uzun illər çox ciddi-cəhdlə azərbaycanlılara qarşı aparılmış bu məkrli siyasətin mövcudluğunu inkar etməyə çalışsalar da, törədilmiş cinayətlərin miqyası o qədər böyükdür ki, bunları heç cür gizlətmək mümkün deyildir. Bir neçə mərhələdə həyata keçirilən bu cinayət əməllərinin müəyyən hissəsi yaxın keçmişimizə, 1948-1953-cü illərə aiddir. Həmin illərdə baş verənlər hələ çoxlarının yaddaşlarında yaşamaqdadır. Azərbaycanlıların Ermənistan adlandırılan ərazidəki tarixi torpaqlarından kütləvi surətdə deportasiyasını təsdiq edən sənədlərin mürəkkəbi də hələ qurumamışdır. Bu gün həmin sənədlərin və azərbaycanlılara qarşı uzun illər aparılmış soyqırım siyasətinin araşdırılması, erməni şovinizminin mahiyyətinin açılıb göstərilməsi və dünya ictimaiyyətinin nəzərinə çatdırılması çox vacibdir. Vaxtı ilə Ermənistan adlı ərazidən deportasiya olunmuş azərbaycanlıların bütün sivil normalara zidd olaraq ermənilər tərəfindən pozulmuş hüquqlarının bərpa olunması istiqamətində hər kəs çalışmalı və bu işə öz töhfəsini verməlidir.

**Natiq İSAYEV,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

**P.S.** *Xosrov Ağayevin oğlu Rövşən Ağayev müvafiq tarixi sənədləri və atasının xatirələrini təqdim etməklə yazının hazırlanmasına böyük dəstək göstərmişdir.*